NİZAMİ GƏNCƏVİ ADINA
MİLLİ AZƏRBAYCAN ƏDƏBİYYATI MUZEYİ

ISSN 2522-4808 (Print)
ISSN 2702-0034 (Online)

# RİSALƏ

## Elmi araşdırmalar jurnalı

# 2-(25)2023



Bakı – "Elm və təhsil" – 2023

**Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**Elmi Şurasının 14 sentyabr 2023-cü il tarixli (protokol №4)**
**qərarı ilə çap olunur**

*Baş redaktor:*
**Rafael Hüseynov,**
***akademik***

**Redaksiya heyəti:**
**Kamil Allahyarov, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Xatirə Bəşirli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Şəfəq Əlibəyli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Aida Qasımova, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Tofiq Məlikli, filologiya üzrə elmlər doktoru, professor, Nizami muzeyi, Azərbaycan**
**Rəhilə Qeybullayeva, filologiya üzrə elmlər doktoru, professor, Bakı Slavyan Universiteti, Azərbaycan**
**Mehdi Kazımov, filologiya üzrə elmlər doktoru, professor, Bakı Dövlət Universiteti, Azərbaycan**
**Paşa Kərimov, filologiya üzrə elmlər doktoru, dosent, AMEA Əlyazmalar İnstitutu, Azərbaycan**
**Ali Yavuz Akpınar, professor, doktor, Boğaziçi Universiteti, Türkiyə**
**Hasan Cavadi, professor, doktor, Kaliforniya Universiteti, ABŞ**
**Firuza Melvil, doktor, Kembric Universiteti, Böyük Britaniya**
**Özgen Felek, professor, doktor, Yel Universiteti, ABŞ**
**Campiyero Bellinceri, doktor, Venesiya Ka Foskari Universiteti, İtaliya**
**Mbaye Lo, professor, doktor, Dyuk Universiteti, ABŞ**
**Hendrik Boeşoten, professor, doktor, Maynz Universiteti, Almaniya**
**Nataliya Çalisova, filologiya üzrə elmlər doktoru, professor,**
**Rusiya Dövlət Humanitar Universiteti, Rusiya Federasiyası**
**Şodimaxammad Sufiyev, filologiya üzrə elmlər doktoru, professor,**
**Tacikistan Respublikası Elmlər Akademiyası, Tacikistan**
**Zemfira Səfərova, akademik, AMEA Memarlıq və İncəsənət İnstitutu, Azərbaycan**
**Cəfər Qiyasi, AMEA-nın müxbir üzvü, Azərbaycan**
**Məryəm Əlizadə, sənətşünaslıq doktoru, professor, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, Azərbaycan**
**Marko Realini, professor, doktor, İtaliya Milli Tədqiqat Şurası, İtaliya**

**Risalə. Elmi araşdırmalar jurnalı. № 2 (25)**
**Bakı, “Elm və təhsil” nəşriyyatı, 2023, 136 s.**

Orta əsrlərdə müsəlman Şərqində yaradılan elmi əsərlər “risalə” adlanırdı. Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin klassik ənənəyə riayətlə “Risalə” adlandırılmış, ədəbiyyatşünaslıq və mədəniyyətşünaslıq problemlərinin elmi araşdırmalarından ibarət məqalələr toplusu ildə iki dəfə (yaz və payız) nəşr edilir. Bu elmi araşdırmalar jurnalı məzmunu etibarilə filologiya (Azərbaycan və dünya ədəbiyyatı, ədəbiyyat nəzəriyyəsi, ədəbi təhlil və tənqid, folklorşünaslıq, mətnşünaslıq) və sənətşünaslıq (muzeyşünaslıq) sahələri üzrə məqalələri əhatə edir. "Risalə" elmi araşdırmalar jurnalı filologiya və sənətşünaslıq elm sahələri üzrə Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi dövri elmi nəşrlər siyahısındadır. 2019-cu ildə Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin "Mətbu nəşrlərin reyestri"nə daxil edilmişdir (Reyestr № 4216). Eyni zamanda, "Risalə" elmi araşdırmalar jurnalı 05 aprel 2018-ci ildən EBSCO beynəlxalq elektron məlumat bazasına daxil edilmişdir (Müqavilə № 46516).

**© Nizami Gəncəvi adına**
**Milli Azərbaycan Ədəbiyyatı Muzeyi**
**© 2023**

# Oxuyacaqlarınız



# RİSALƏ
## *Elmi araşdırmalar jurnalı*

*№ 2. 2023(25)*

## Mündəricat

**KLASSİK İRS: TARİXİ VƏ NƏZƏRİ PROBLEMLƏRİ**

*HÜSEYNOV Rafael.*
Nizami Gəncəvinin “Xəmsə”sində türk qatı və türk milli kimliyi düşüncələri
doi.org/10.30546/2702-0034.2023.2.25.7

*QAYIBOV Seyran.*
Yarımçıq hekayə: Əmin Abidin “Həsrət ili” hekayəsinin transliterasiyası və təhlili
doi.org/10.30546/2702-0034.2023.2.25.30

*SADIQOVA Rəhilə.*
Zərif hami, səxavətli fədai: Həmidə Cavanşir-Məmmədquluzadə
doi.org/10.30546/2702-0034.2023.2.25.41

**YENİ VƏ MÜASİR DÖVRDƏ ƏDƏBİ-MƏDƏNİ PROSES**

*ƏSƏDULLAYEVA Nuranə.*
Tarixi həqiqət və bədii gerçəklik
doi.org/10.30546/2702-0034.2023.2.25.51

*HEYDƏROVA Sevinc.*
Azərbaycan yazıçılarının qurultayları, ədəbi müzakirələr və tədbirlər
“Ədəbiyyat və incəsənət” qəzetinin səhifələrində
doi.org/10.30546/2702-0034.2023.2.25.57

*XƏLİLOVA Güllü.*
Sabir Rüstəmxanlının 44 günlük Vətən müharibəsinə həsr etdiyi “Qarabağa dönüş” poeması
doi.org/10.30546/2702-0034.2023.2.25.71

*MUSAYEVA İradə.*
İsa Muğannanın roman yaradıcılığında yeni ədəbi estetika və fəlsəfi düşüncə motivləri
doi.org/10.30546/2702-0034.2023.2.25.84

*MUXTAROVA Dinara.*
Художественная литература и публицистический жанр: глобальные
проблемы публицистики XXI века
doi.org/10.30546/2702-0034.2023.2.25.101

**TARİXİ-MƏDƏNİ ABİDƏLƏRİN QORUNMASI VƏ TƏDQİQİ. MUZEYŞÜNASLIQ**

*ƏLİYEVA Nailə.*
Nizami muzeyinin UNESCO əhəmiyyətli eksponatı
doi.org/10.30546/2702-0034.2023.2.25.117

*YAQUBƏLİ Rəhimə.*
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyində keçirilən yubiley
mərasimləri və yaradıcılıq gecələri
doi.org/10.30546/2702-0034.2023.2.25.122

*Risalə. Elmi araşdırmalar jurnalı.*
**https://doi.org/10.30546/2702-0034.2023.2.25.71**
*№2.2023(25) 71-83*

**Güllü XƏLİLOVA**
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyi
**nigar.turk@yandex.ru**
**https://orcid.org/0009-0002-5481-6825**

# SABİR RÜSTƏMXANLININ 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNƏ HƏSR ETDİYİ "QARABAĞA DÖNÜŞ" POEMASI

**Açar sözlər:** müharibə, Qarabağ, vətən, tarix, şəhid, qəhrəmanlar
**Keywords:** war, Karabakh, motherland, history, martyr, hero
**Ключевые слова:** война, Карабах, родина, история, щахид, герои

**Giriş.** XX əsrin 80-ci illərinin sonu – 90-cı illərinin əvvəllərinə qədər davam edən Birinci Qarabağ müharibəsi Azərbaycanın iyirmi faiz torpaqlarının Ermənistanın işğalı altına keçməsiylə nəticələnmişdir. Otuz ilə yaxın müddət ərzində Azərbaycan torpaqlarının işğaldan azad olunması məsələsində beynəlxalq təşkilatların siyasəti nəticəsiz qalmışdır.

Azərbaycan dövləti ərazi bütövlüyünü bərpa etmək məqsədilə otuz ildən sonra, 2020-ci il sentyabrın 27-si əks-hücum həyata keçirərək İkinci Qarabağ müharibəsini elan etmiş oldu.

44 gün davam edən, nəticədə Azərbaycanın qələbəsi ilə tamamlanan Vətən müharibəsi Azərbaycan ədəbiyyatına da təsirsiz ötüşmədi. Yaradıcı insanların otuz il ərzində ürək ağrısı ilə Qarabağ haqqında yazıya aldıqları bədii əsərlər qələbə duyğuları, qalibiyyət sevinci ilə əvəz olundu.

44 günlük Vətən müharibəsindən sonra Azərbaycan ədəbiyyatında yazılan ilk poema Xalq şairi Sabir Rüstəmxanlının yaradıcılığında meydana gəldi.

Sabir Rüstəmxanlının Qələbə münasibətilə yaratdığı "Qarabağa dönüş" poeması, sözün əsl mənasında, Azərbaycan xalqının Zəfər tarixini layiq olduğu şəkildə təmsil edə biləcək əsərdir. Poema çoxsaylı hissələrdən ibarət olmaqla Azərbaycanın keçdiyi əsas tarixi prosesləri, eyni zamanda Birinci Qarabağ müharibəsinə qədərki dövr, müharibə dövrü, 30 il ərzində yaşananlar, eləcə də bir çox tarixi hadisələri işıqlandırır.

**"Qarabağa dönüş" poemasının aktuallığı.** Birinci Qarabağ müharibəsindən sonra Azərbaycan ədəbiyyatında bir çox əsərlər meydana gəlmişdir. Yaşanmış tarix həm nəzm, həm də nəsr nümunələrində olduqca aktual şəkildə öz təzahürünü tapmışdır. Nümunə olaraq Aqil Abbasın "Dolu", Hüseynbala Mirələmovun "Dağlarda atılan güllə", Nüşabə Məmmədlinin "Zəngulə", Fazil Güneyin "Qara qan" romanları, Sabir Əhmədlinin Qarabağ trilogiyası; "Axirət sevdası", "Kef", "Ömür urası", Elçin Hüseynbəylinin "Əsirlər" povesti, Şərif Ağayarın "Şəkil" hekayəsi müstəqillik dönəmindən üzü bəri nəsrdə, Nurəngiz Günün "Xocalı simfoniyası", Ədalət Əsgəroğlunun "Dərdimizin qan rəngi", Cabir Novruzun "Şuşa yolu", Ələmdar Quluzadənin "Şəhid şəhər", Ələkbər Salahzadənin "Xocalı xəcilləri" kimi poemaları poeziyada Qarabağ mövzusunda yazılmış ən yaxşı əsərlər sırasına daxildir. Lakin bütün bunlara baxmayaraq, Qarabağa geri dönmək, doğma torpaqlarımızın həsrətiylə otuz ilə yaxın yaşamaq duyğusu böyük ədəbi tarixi əsərlərin yaranmasına güclü rəvac verə bilməmişdir. Odur ki, kifayət qədər gözəl əsərlər yazılsa da, bu



BY NC ND

nümunələrin heç biri şedevrə çevrilmədi. Çünki Azərbaycan məğlub tərəfin kədərini nümayiş etdirən əsərlər deyil, qələbəsini tarixə çevirəcək möhtəşəm poemalar, romanlara ehtiyac duyurdu. Axı Qarabağ Azərbaycandırsa, qələbə də Azərbaycanın olmalı idi. Təbii ki, belə olan təqdirdə ərsəyə gələn ədəbiyyat nümunələrində natamamlıq hiss olunmaqda idi.

İkinci Qarabağ müharibəsi başlayandan ta bitən günə kimi, eləcə də ondan sonrakı dövr ərzində ədəbiyyatımızda bir çox poeziya nümunələri yaranmağa başladı. Ədəbiyyatşünaslar, yazarlar, şair və yazıçılar sidq ürəkdən qələmə sarılmışdılar. Cəbhəyə yollananlar, isti-isti vətən qəhrəmanlarının şücaətini, igidliklərini qələmə alanlar, otuz ilin həsrətini bütün qəlbi ilə alovlandırıb sanki bu günə saxlamışdılar. Yazdılar, yaratdılar... Qalib olmaq, qələbə əsərlərini tarixə çevirmək uğrunda savaşmağa başladılar. Azərbaycan yazıçı və şairləri qələmə kökləndi, bir-birindən dəyərli və Zəfər çoşqulu əsərlər yaranmağa başladı. Xalq şairi Sabir Rüstəmxanlının "Qarabağa dönüş", Balayar Sadiqin "Zəfər simfoniyası", Kamran Nəzirlinin "Mənim sevimli yaddaşım" hekayəsi, Əlirza Həsrətin "Barıt qoxulu çiçək" poemaları və s.

Beləliklə, İkinci Vətən müharibəsinin başlanmasından ta müharibə bitənə kimi yazıb-yaradan sənətkarlar arasında Xalq şairi Sabir Rüstəmxanlı da vardı. Onun yaratdığı əsər Vətən müharibəsindən sonra qələmə alınıb işıq üzü görən ilk poema kimi tarixə düşdü. Sözsüz ki, sənətkarın yazdığı poema ilk olması ilə deyil, tarixi faktlar, məzmunu, Qələbəni layiq olduğu şəkildə tərənnüm etdiyi üçün əhəmiyyətli oldu. "Sabir Rüstəmxanlının Vətən müharibəsindəki Qələbə Ruhunu özündə yaşadan son iki poeması – "Savaş bitməmiş hələ" və "Qarabağa dönüş" – Azərbaycanın bir dövlət və millət olaraq necə qüdrətli mənəvi gücə, siyasi iradəyə malik olduğunu, bu qocaman məmləkətin saflıq və həqiqət üçün susayan müasir dünyaya necə gərək olduğunu anladan ərən görklü zərif eposlardır" [6, s.6].

**Poemanın məzmunu.** "Qarabağa dönüş" poemasını Sabir Rüstəmxanlı yaradıcılığının şah əsəri kimi dəyərləndirmək olar. "Sabir Rüstəmxanlı "Qarabağa dönüş" poemasında Azərbaycan ordusunun igid oğullarını; müdrik rəhbərin böyük qələbəsini, qələbəyə gedən yolu, əsgərlərin qəhrəmanlığını tərənnüm edir" [3, s.14].

"Qarabağa dönüş" həm ərazi baxımından, həm də milli-mənəvi cəhətdən doğma vətənin bütövlüyünə qovuşmasının poemasıdır [5, s.8]. Poemanın tarixi, mənəvi əhəmiyyəti onu daha da aktuallaşdırır. Vətən savaşının bədii təcəssümü olaraq xüsusi əhəmiyyət kəsb edir.

Poema 15 hissədən ibarətdir. Hər hissəsində sənətkar duyğularını böyük həyəcanla bölüşür, ya müharibə boyu baş verən əsas nəticələri, ya da tarixə səyahət edərək mövcud vəziyyətin keçmişə, bugünə olan mənfi, müsbət tərəflərini şərh edir.

Sənətkar poemanın ilk hissəsində Qarabağ savaşının hər kəsdə oyatdığı hissləri güzgü kimi qarşımıza qoyur:

Nə bu ölüm yenidir, nə yarımcan dirilik,
Üzdə bütöv olsam da, ürəyim çilik-çilik.
Yad əllər parçaladı, bölündükcə bölündük,
Küləklərdə sovrulduq, ələklərdə ələndik [1, s.21].

Tarix boyu baş verən qanlı hadisələr xalqın ürəyində unudulmaz izlər qoymuşdur. Çox bölündük, haqsızlıqlara məruz qaldıq. Yadellilərin torpaqlarımızı mənimsəyib özlərininki kimi təqdim etmələrinin acısını illərlə yaşadıq. Bütün keçmiş

tarixi hadisələr bizi sarsıtmadı, əksinə, bu gün dünya qarşısında mübariz savaşımızı o günlərə borcluyuq. Heç vaxt unudulmayacaq və əbədi olaraq yaddaşlara həkk olunan o günlər indi qələbə sevinci ilə yoğrularaq qalib xalqın ruhunu daşıyır.

Meydan yumruğa döndü, hər yumruq bir qoşundu.
Harayımız ildırım, sözlərimiz qurşundu.
Doladın boğazıma kəfənimi o günlər,
Sinəmdə qurşun yeri, xəyalımda sürgünlər.
Ancaq Vətən sevdası hər qorxunu aşırdı,
On səkkiz gün səsimlə bir millət danışırdı [1, s.22].

Sabir Rüstəmxanlı 1988-ci ilin fevralından başlayaraq bir milyon, milyon yarım insanın toplandığı Meydan hərəkatını idarə edənlərdən biri olub. Sənətkar bütöv Azərbaycan, müstəqil Azərbaycan uğrunda xalqın Meydan hərəkatına qoşulması kimi tarixi hadisəyə də ötəri nəzər salmışdır.

Gəldi Sovet ordusu, dişinə vursun bizi,
Tanklar, toplar, mərmilər bükmədi dizimizi.
Xalqın iradəsindən çaşıb qorxuya düşən,
Kürsüsünə sarılıb tülkü kimi büzüşən
Millətin haqq sözünü gətirmədən dilinə
Daş qoydu Baş katiblə xəyanət təməlinə [1, s.23].

Sənətkar bu misralarda 20 Yanvar hadisələrinə toxunmuşdur. Qanlı Yanvar gecəsinin xalqımızın qan yaddaşında əbədi, əzəli iz qoyması danılmaz faktdır. Dinc əhaliyə qarşı törədilən bu dəhşətli hadisə dolayısı ilə bir-biri ilə bağlı olan tarixi gerçəkliklərdir.

Soyuq yanvar günündə Bakıda axıtdı qan
Ordu öz şəhərinə soxulur yağı kimi,
Cırır bayraqlarını düşmən bayrağı kimi [1, s.23].

Bu misralarda illərlə Sovet imperiyasının tərkibində dostluq, qardaşlıq şüarı altında yaşayıb-yaradan millətə qarşı amansız münasibət təəssüf hissi ilə təsvir olunmuşdur.

İşğal ordusu durdu işğalçının yanında,
Boğdu öz şərəfini Xocalının qanında.
Dünyanın fitvasıyla coşur Hayın harayı,
Arxadan tankla gəlir sovetın son alayı.
Hüquq donub, haqq batıb, dünya eşitmir, kardı.
Qatilə "dur!" deməyən özü də günahkardı [1, s.24].

Şair "İşğal ordusu durdu işğalçının yanında" ifadəsiylə sovet 366-cı alayının mənfur erməni işğalçılarına verdiyi dəstəyə işarə edərək Xocalıda yaşanan tarixi faicədə onların da iştirakını təəssüf hissi ilə vurğulamışdır. Həqiqət nə qədər acı olsa da, onu danmaq mümkün deyildir. Xocalıda törədilənlər bu gün də ədalətli həllini



| www.risale.az

tapmamışdır. Dünya hələ də bu haqsızlığın qarşısında Azərbaycan xalqının gözlədiyi qərarı verə bilməmişdir. Ədalətli qərarsa cinayətkarların qanun qarşısında layiqli cəzalarını almalarıdır. Ali Baş Komandanın rəhbərliyi ilə başlanan mübarizə sona çatdırılacaq, qatillər ədalət qarşısında cavab verəcəklər!

Sabir Rüstəmxanlı poemanın ilk hissəsinin yekununda otuz il ərzində Qarabağ probleminə biganə yanaşan, onun harayına səs verməyən Avropa İttifaqı, Millətlər Birliyi, ATƏT-in Minsk qrupuna istehza edərək yazır:

O, Millətlər birliyi, bu, Dövlət Şurası,
Hamısının ağzında eyni çürük saqqızdı,
Hamı siyasət qurdu, quzu yurdum yalqızdı... [1, s.25]

Poemanın ikinci hissəsində sənətkar İkinci Qarabağ müharibəsinin başlamasına işarə edir. Xalqımız üçün yolun sonunda parlaq işığın göründüyünə eyham vurur:

Ancaq birdən göylərdən bir şimşək çaxıb keçdi.
Həqiqət min yalanı yandırıb-yaxıb keçdi.
"Savaş" deyən sərkərdə milləti oyandırdı,
Hər ürəkdə ümiddən çilçıraqlar yandırdı [1, s.26].

Ali Baş Komandanın əmri ilə başlayan 44 günlük müharibə xalqın qəlbində böyük ümidlər yaratmışdı. Otuz ildən sonra ədalət bərpa olunacaq deyə insanlar mübarizəyə hazır vəziyyətdə durmuşdular. Gənclərimiz bir an belə tərəddüd etmədən haqqın yolunda canlarından keçməyə hazır idilər.

Poemanın üçüncü hissəsi İkinci Qarabağ savaşının təfərrüatlarının təsviri baxımından önəmli bölmə hesab edilməlidir:

Vur, qəhrəman əsgərim, "Xocalı" bağırıb, vur,
Yad əllərdə inləyən torpağın xətrinə, vur [1, s.27].

Sənətkar sanki Qarabağa kiçik bir səyahət edir. Ziyalı qəhrəmanların adlarını çəkərək Qarabağ torpağının yetişdirdiyi böyük istedadlarla qürur duyduğunu bildirir:

İmtahan bitməsini gözləyir Ənvər Rza
Tez qayıtsın kəndinə başında uşaqları!
Gəzsin xalq arasında – sazından sözünəcən,
Qürbət olmuş Göyçənin Ələsgər soraqları [1, s.29].

Sənətkar S.Rəhimli, Qaraoğlu Əli, Eldar Baxış kimi adları da xatırlamışdır.

Süleyman Rəhimlidən hər il bir yeni roman,
Adına neçə eldən alqış gələcək...
Qaraoğlu Əlinin qələmində "Qəhrəman"
Zəngəzurdan nə yazsa, millətə xoş gələcək [1, s.30].



| www.risale.az

Qarabağda yerləşən tarixi məkanların adlarının çəkilməsi keçmişə hərtərəfli güzgü effekti yaratmışdır. Füzulidə yerləşən Azıx mağarasından tapılan tarixi qalıqlar da buna bir nümunədir.

Azıx tarixə giriş – ağız açıb çağırır,
Hər kurqan sirrə pərdə, demə adi təpədi.
Bu gücüm, bu ilhamım Füzuli yadigarı,
Diri dağlar ucalsın, diriliyi əbədi [1, s.31].

Sabir Rüstəmxanlı Xudafərin körpüsünü, eyni zamanda Arazın o tayında qalan qırx milyon cənubi azərbaycanlıları da unutmur, onların həsrətini çəkir.

Qayıdım Araz boyu Qarabağ düzlərinə,
Yüzillərin həsrəti ürəyimi didəndir...
Əl edir Qarabağa qaradağlı qardaşlar,
Qırx milyon insanıyla ora da bir Vətəndir [1, s.31].

Poemanın beşinci hissəsində “adsız qəhrəmanlar”a sənətkar pərəstişi, heyranlığı duyulmaqdadır. Minlərlə igidin heç nədən qorxmayaraq doğma torpaqların keşiyində durmağa hazır olması onu heyran edir. Canlarından keçərək Bütöv Azərbaycan uğrunda şəhidlik zirvəsinə ucalmaları həm kədərləndirir, həm də inanılmaz qürur hissi doğurur:

Adına qurban olum, ey adsız qəhrəmanım!
Ruhundakı tilsimə heyran olub durmuşam.
Siz Vətən fədaisi! Qəlbimdə hərənizə
Neçə ləqəb düşünüb, neçə ad uydurmuşam [1, s.37].

Ermənilərin zaman-zaman başımıza açdıqları oyunları sadalayan Sabir Rüstəmxanlı "döyüşə yolladığı əsgəri" hər şeydən öncə tarixlə silahlandırır, onu ideoloji cəhətdən yetkin insan kimi təsvir edir [4, s.14]. Sənətkar adsız qəhrəmanları türksoylu tarixi qəhərmanlarla müqayisə edir. Şücaətdə, qorxmazlıqda əfsanəvi qəhrəmanlarla bır sırada olduqlarını, torpaq uğrunda gedən amansız mübarizədə nümayiş etdirdikləri cəsurluğu qiymətləndirir, Mete xan, Qazan xan, Oğuz, Bayandur, Qızıl Arslan, Çingiz xan, Əmir Teymur, Ərtoğrul kimi sərkərdə və igidlərin bir-bir adlarını çəkir, onlara bu cür müraciət edir:

Gəlir Oğuz, Bayandur, Alparslan, Qızıl Arslan,
Çağrı bəyin yoluna düzülüb neçə oğul,
Siz bugünün Çingizi, siz bugünün Timuru,
Sizlərin simasında dirilibdir Ərtoğrul! [1, s.38]

“Türk adət-ənənəsinə görə, qəhrəmanlıq göstərənə qədər "adsız" qalan igidlərə Dədə Qorqud gəlib boy boylayıb, soy soylayıb ad verirdi. Rüstəmxanlı əsərdə bu tarixi səhnəni son dərəcə yaradıcı poetik şair düşüncəsi ilə canlandırır” [3, s.15].

Şair vətənin keşiyində canından keçməyə hazır olan igidlərimizin hələ də qızğın döyüşün, müharibənin mərkəzində yorulmadan, fəxrlə döyüşdüklərini bildirərək vətən fədailərinin Dədə Qorqud tərəfindən adlandırılmasını arzu edir.

Ya da ki, Dədəm Qorqud dilləndirib qopuzu,
Türkün ölməz ruhundan verər sözə yeni can.
Deyər ki, ayırmıram sizi bir-birinizdən,
Şuşa fatehlərinin bir adı var: Qəhrəman! [1, s.38]

Poemanın altıncı hissəsi Şuşaya həsr olunmuşdur. Şuşanın yetişdirdiyi istedadlara ağızdolusu misralar düzən sənətkar şəhərimizə hamının heyran qaldığını qeyd etmişdir.

Eyni zamanda sənətkar kinayəsini gizlətmədən Nikol Paşinyanın Şuşada bir müddət əvvəl yallı getməsini xatırlayaraq fələyin necə tərsinə dövran etməsini və gedişatın artıq bizim xeyrimizə dəyişdiyini sevinc hissi ilə qələmə almışdır:

Şuşada şırmandıqca sanırdın yenilməzsən.
Hələ yallı da getdin qutsal Cıdır düzündə.
Ayaq qoyduğun torpaq bilmədin sənin deyil,
O şənliklər, o rəqslər gələcəkdir gözündən [1, s.40].

Nikol Paşinyana durmadan suallar ünvanlayan şair Şuşanın tarixinə, yetişdirdiyi böyük nəsillərə heç bir mənsubluğu olmayan bu kəsin davranışını gülünc hesab edir:

Bu qala qayalarda bir qala da ucaldan
Pənah xanın dövründə sən hansı gorda idin? [1, s.40]

Şair Şuşa qalasının yenilməzliyini tarixə səyahət edərək xatırladır. Bir çox fatehlər, sərkərdələrin fəth etmək aruzusunda olduğu möhtəşəm qalanın ələ keçirilməsi heç kimə müyəssər olmamışdır. Ancaq sənətkar Qacarın Şuşa qalasını məhz ikinci yürüş zamanı fəth etdiyini bildirir.

Bircə Qacar almışdı ikinci hücumunda,
Baxmaqdan yorulanda aylarla hayıl-mayıl.
Bəndəsi o dünyaya həsrət getməsin deyə
Ona gizli yolları göstərmişdi Əzrayıl [1, s.41].

"Şuşa şəhərinin alınmasında Azərbaycan əsgərinin əlbəyaxa döyüşlərdə göstərdiyi qəhrəmanlıqların tərənnümü də Vətən müharibəsi mövzusunun ədəbiyyatda hansı bucaqdan təqdim edilməsinə istiqamət verən detallardır" [5, s.9].

Şuşanı əlbəyaxa döyüşlə geri qaytardığımız heç kəsə sirr deyildir. Şuşa qalasında nə texnika hesabına, nə də ki hər hansı silahla özünümüdafiə qurmaq mümkün olmadığından igidlərimiz əlbəyaxa döyüşlə Şuşanı fəth etməli idilər. Düşmənlə üzə-üzə, göz-gözə gəlmək əsl qalibin müyyənləşməsində vacib rol oynamışdır. Qədim zamanlarda olduğu kimi, bu cür mübarizə yalnız əsl qəhrəmanların öhdəsindən gələ biləcəyi reallıq idi. "Sabir Rüstəmxanlı qələmində Şuşanın işğaldan azad edilməsi İstanbulun fəthi qədər möhtəşəmdir. Sultan Mehmed İstanbulu fəth

edərkən hansı əzab-əziyyətə qatlaşmışdısa, çətinliklərə sinə gərmişdisə, Azərbaycan əsgərinin Şuşa fəthində də eyni ruh var" [4, s.14].

Şair "Daşaltı əməliyyatı"nı da xatırlatmışdır misralarında... "Daşaltı faciəsi" Birinci Qarabağ savaşının sonrakı müqəddəratını təyin etmişdir. Bu əməliyyatın uğursuz nəticələnməsi birbaşa savaşın məğlubiyyətinə gətirib çıxarmışdır. Ona görə sənətkar bu tarixi faktı xatırlatmaqla keçmişə nəzər salır və bu faciənin intiqamını alacaq igidləri sanki döyüşə ürəkləndirir:

Keçmiş olsun, Daşaltı, yenə gəlir əsgərim,
Bu ağlar dərələrə unutdursun yasını.
Şuşadan gedənlərin övladları gəlib ki,
Alsınlar burda axan qanların qisasını! [1, s.45]

Poemanın səkkizinci hissəsində Şuşa qalasının fəthinə hazırlaşan əsgərlərin möhtəşəm qorxmaz ruhu göz önündə canlanır. Qalaya qaya ilə dırmaşan igidlərimizi əlbəyaxa döyüş, mübarizə gözləyir. Adsız qəhrəmanların qarşıya qoyulan əməliyyatın alın açıqlığı ilə öhdəsindən gəlmələrini ürəkdən diləyən sənətkar növbəti misralarda da bu gözləntisini aydın ifadə etmişdir:

Əsgər qalxır qalaya,
çıxılmazdır daş-divar.
Ancaq əsəgərimin də poladdan pəncəsi var.
Qartal dırnaqlarını daşlara çala bilir,
Uçurumun üstündən asılıb qala bilir [1, s.46].

Şair gecənin sükutunda keşik çəkən düşmənin projektorla qaranlığı izləməsini məharətlə təsvir etmişdir. Sübhün açılmasını gözləyən düşmən heç ağlına da gətirmir ki, canavarlarımız böyük əzmlə qayaya dırmanıb hücuma hazırlaşır. İndi heç kəs qəhrəmanlarımızı dayandıra bilməz. Onlara "Şuşanı azad et" əmri verilib. İgidlər həsrətlə doğma şəhərin görüşünə tələsir. İntiqam hissi ilə alışıb yanan bu ürək döyüntüləri sanki gecənin səssizliyinə qarışıb. Bu səssizliyi adsız qəhrəmanların amansız mübarizəsi pozacaq:

Gözündə Xocalının, Gəncənin körpələri,
Tərtəmiz gözlərindən yaş yerinə qan axır.
Çox sevinmə bu yasa, dayan, uşaq qatili,
Barmağım gözlərini deşmək üçün darıxır [1, s.51].

Poemanın növbəti misralarında qalaya doğru qalxan əsgərlərdən birinin yaralanması təsvir edilmişdir. Dırmaşmağa gücü qalmasa da, ürəyində Şuşanı görmək arzusuyla alışıb yanması məharətlə tərənnüm olunub. Xoşbəxtlikdən yaralı əsgərin dadına yoldaşı çatır. Onu çiyninə alaraq Şuşaya doğru qalxır. Azərbaycan əsgəri vətən uğrunda döyüşməkdən çəkinmir, qəhrəmancasına mübarizə aparır, canından belə keçməyi göz önünə alır. Əsgər döyüş yoldaşlarını qoruyur, yaralı dostlarını darda qoymur, sona qədər vətən, vicdan borcunu yerinə yetirir:



| www.risale.az

Qollarını boynuma bərk-bərk dola, buraxma,
Səni qaldıracağam – bu daşlar buz olsa da!
Yaran da sağalacaq Şuşanın havasından,
Bir yerdə gedəcəyik, bu yol sonsuz olsa da [1, s.53].

“Qardaş, sən burax məni” deyən əsgər ona görə mübarizənin, qələbənin gecikməsini istəmir. Can nə qədər şirin olsa da, vətən, ana torpaq ondan da şirin və əzizdir! İgid əsgər qardaşını yolda qoymur. “Şuşanı öz gözünlə görəcəksən” deyir.

Beləliklə, adsız qəhrəmanlar hər şeyə üstün gələrək Şuşanı fəth etmək üçün irəli addımlayırlar.

Üzeyirin “Cəngi”si birdən gəlmişdi dilə,
Xanın, Seyidin ruhu “Heyratı” çaldırırdı.
Şəhid qəhrəmanlarım görünməz əlləriylə
Adsız qəhrəmanları Qalaya qaldırırdı! [1, s.54]

Poemanın doqquzuncu hissəsində adsız qəhrəmanlar nə olursa-olsun Şuşanı geri qaytarmaq niyyətindədirlər. İllərin həsrəti, nifrəti, sevgisi naminə geri çəkilmək olmaz. Ölmək var, dönmək yoxdur!

Düşmən qəfildən yaxalanır. Belə bir hücumu gözləmədiklərindən həyəcan içində boğulur, çaşqınlıq yaşayırlar. Qorxu hissi onların məğlubiyyətinin başlanğıcı olur.

Döşünə döyən ordu qanqal kimi biçilib,
Leş leşin üstündədir, oyanmaz bu yuxudan.
Düşmən siçana dönüb, düşmən elə kiçilib
Silahla bir-birinə saldırır qorxusundan [1, s.57].

Şuşanın alınması 44 günlük müharibənin taleyində həlledici tarixi dönüş nöqtəsi oldu. Haqq-ədalət yerini tapmağa, narahat ruhlar sakitliyini, xalq isə, nəhayət ki, onun olanı geri qaytarmağı bacardı. Ən ağır, məsuliyyətli, həyəcanlı döyüşün, sözün əsl mənasında, əlbəyaxa savaşın, heç bir texnikanın düşmənin dadına gələ bilməyəcəyi bir mübarizədə qalib Şuşanın doğma övladları oldu. Qisas alındı!

Bu gün türkün bayramı, işğalçının yasıydı,
Allahın hökmü ilə yazılmışdı bu yazı,
Onun “bəla” dediyi Allahın balasıydı.
Xocalı qırğınının alınmışdı qisası [1, s.59].

Poemanın onuncu hissəsində şair “qələbə tvitləri”ndən bəhs edir. Hər qalibiyyətin nəticəsini Ali Baş Komandan İlham Əliyev öz Tvitter səhifəsində paylaşaraq xalqı növbəti qələbəyə kökləyirdi. Onu maraq, həyəcan və coşquyla izləyən xalq üçün “qələbə tvitləri”nin xüsusi önəmi var idi. Ən doğru məlumatı, baş verənlərin gedişatını ancaq qələbə tvitləri ilə təsdiqləyirdilər. Bu baxımdan da sənətkar “qələbə tivtləri”nə xüsusi yanaşmışdır.

“Sabir Rüstəmxanlının təqdimatında Ali Baş Komandanın qələbə tvitləri "çürüyən bütləri" yıxıb sökən, məkrli oyunları dağıdan, "quduzlaşan itləri" öz yuvasınadək qovan hərbi-siyasi bəyanatlar kimi səsləndirilir”.

Qayıtsın Qarabağa yenə xoşbəxt çağımız,
Başımız üstündə üçrəngli bayrağımız!..
Qovur öz yuvasına quduzlaşan itləri!
Ali Baş Komandanın qələbə tvitləri! [5, s.9]

Əsərin onbirinci hissəsində şair torpaqlarımızın hər qarışında bir xatirə, əsrlərin tarixi yaddaşı, xalqın acılı-şirinli günlərinin olmasından bəhs edir, eləcə də poemanın digər hissələrində olduğu kimi, sənətkarın müasir texnologiyanın bizə bəxş etdiyi imkanlardan yararlanması, həmin terminləri tez-tez işlətməsi məqamı həm əsərin zamana uyğunlaşmasını təmin etmiş, həm də hadisələrin olduğu kimi təqdim edilməsinə şərait yaratmışdır. Məsələn, "Hər qaya milyon ilin harddiskidir elə bil" misralarını yazmaqla nəinki yaşlı nəslin, eyni zamanda gənc nəslin də diqqətini çəkməyi bacarmış, bununla da xalq olaraq hamını hadisələrin mərkəzinə cəlb etməyi niyyət etmişdir. Bu baxımdan da bu cür terminlərin işlədilməsi poemaya özəllik qatmışdır.

Poemanın onbirinci hissəsinin ilk misralarından şairin gələcəyə olan işıqlı ümidlərinin parlaq təcəssümünü hiss edirik. Qarabağa doğru səfərlər, yeni arzular insanı daha da ruhlandıraraq qələbəni ürəkdən yaşamağa sövq edir:

Minadan təmizlənsə, gedərdik Qarabağa,
Bəlkə tövbə etməyə, bəlkə üzr istəməyə.
Cığırları oyadıb, kəmənd atıb hər dağa,
"Sizi çox gözlətmişik, bağışlayın!" deməyə [1, s.64].

Poemanın onikinci hissəsində sənətkar Azərbaycan dövlətinin dar günündə dayaq olanlara ömürlük bağlılığımızı, "qardaş" deyib düşmənə dayaq olanların isə yolumuzdan əbədi uzaqlaşdırılacağını bildirir:

O əllər ki uzandı sənə çətin günündə,
Qardaşların əlidir, qızıla tutulmalı.
Üzdə "bəradər" deyib, düşmənə dayaq olan
Dinimə ləkə olan şeytandan qurtulmalı! [1, s.70]

İkinci Qarabağ müharibəsi zamanı əsas iki ölkənin dəstəyi danılmaz faktdır. Qardaşlıq nümayiş etdirən bu ölkələr əbədi olaraq dostluqlarını sübut etdilər. Sənətkar poemanın onüçüncü hissəsində bu məqama da xüsusi diqqət ayırmışdır.

Üç bayraq dalğalanır üç qardaşın şəninə.
Silir göz yaşlarımı iki əl, çıxım yasdan.
Bir dua da artacaq duamın üzərinə,
Alqış sənə, Türkiyə! Alqış sənə, Pakistan! [1, s.72]

Poemanın ondördüncü hissəsi qardaşlıq, türkçülük duyğularının ön planda olması ilə maraq doğurur. Sənətkar tarixə səyahət edərək türk qardaşlarımızın hər zaman çətin günlərimizdə göstərdikləri hərbi, mənəvi dəstəyin qiymətsiz olduğunu qeyd edir. Bunu heç zaman unutmamalı, türk bağlarımızı daha da möhkəmləndirməli olduğumuzu bildirir.

"Bir vaxtlar "Bu sənin xalqındır" kitabından oxuduqlarım zəfər tarixini əbədiləşdirən dastanda bir daha isbatını tapdı. Görünür, islamçılığı, turançılığı mənəvi, tərbiyəvi bir kateqoriya kimi, birləşdirici vasitə kimi, bugünün işi kimi qəbul etməliyik. Türkçülüyü biz yalnız müstəqil, güclü türk dövlətlərinin mənəvi birliyi kimi təsəvvür edə bilirik və bu da ilkin mərhələdə hər kəsin öz dövlətinin möhkəmləndirilməsini zəruriləşdirir. S.Rüstəmxanlının türkçülük, azərbaycançılıq düşüncəsi H.Zərdabinin, İ.Qaspıralının, Ə.Hüseynzadənin, Y.Akçuranın, Ə.Ağaoğlunun, Z.Göyalpın bütün Türk dünyasının müstəqillik, azadlıq məfkurəsinin davamı kimi diqqəti cəlb edir".

Bir vaxt Nuru paşa da gəldi qardaş hayına,
Dirək oldu yurdumda min könül sarayına,
Ocağımız küllənib, ümidimiz sönəndə,
Bakı, Şuşa, Zəngəzur qan gölünə dönəndə
Tiflisdən, Qarabağdan, Naxçıvandan keçmişdi.
Neçə gizli tələdən, neçə qandan keçmişdi [7, s.14].

Poemanın onbeşinci – son hissəsi Qələbədən iyirmi beş il öncə yazılmış nəticədir. Sənətkar sanki iyirmi beş il öncəni görmüş, arzu və istəklərini səmimi şəkildə qələmə almışdır. Ağır günlərin bitəcəyini, Qarabağın, bütöv Azərbaycanın bərqərar olmasını iyirmi beş il öncə xəyal edib, ürəkdən arzulamışdır:

Ovacağıq Şuşada düşmənlərin burnunu,
Erməni kimdir türkün sındıra qürurunu?
Bu da Qərbin fitvası, bu da bir sirdi olub,
Yoxsa o bizi yensin?
Hansı əsrdə olub?
Bu köç geri dönəcək səfərdən dönən kimi,
Dağlar da dikələcək ruhumuz dinən kimi! [1, s.77]

"...Bu sözlər yazılanda hələ keçən əsrdi ...Hələ Qarabağımız Hayastana əsirdi" misraları imkanları zəif, əlaqələri məhdud olan ölkə üçün deyilmişdir. İndi isə vəziyyət tamam başqa cürdür. Bu gün Azərbaycan dünya siyasi aləmində sözünü deməyi bacaran qüvvəyə çevrilib. İkinci Qarabağ müharibəsindən qalib kimi çıxan ölkəmiz nüfuzunu daha da artıraraq öz mövqeyini möhkəmlətmiş oldu.

**Nəticə.** Sabir Rüstəmxanlının 44 günlük Vətən savaşına həsr etdiyi "Qarabağa dönüş" poeması xalqın qələbə ruhunu, tarixini, qazanıb-itirdiklərini, nəhayət, bu gün Azərbaycanın dünya siyasətində tutduğu mövqeyi mükəmməl şəkildə ortaya qoydu. Çətin mübarizə nəticəsində qazanılan qalibiyyət uğurlu siyasətin məhsulu, vətən oğullarının yenilməz mövqeyinin nümayişi oldu.

Poema Vətən savaşını həm bədii-mənəvi cəhətdən, həm də siyasi nöqteyi-nəzərdən tərənnüm etməyi bacaran möhtəşəm əsərdir. Müharibə ərzində 44 günün qısa xronikasını, eyni zamanda tarixi keçmişə qısa səyahətini Sabir Rüstəmxanlının "Qarabağa dönüş" poeması ilə izləmək mümkündür. "Qarabağa dönüş" poeması qazandığımız qələbənin, yaşadığımız şanlı tarixi hadisələrin qiymətləndirilməsi, gələcək nəsillərə ötürülməsi baxımından olduqca əhəmiyyətli bədii nümunədir.

Əlaqə
E-mail: **nigar.turk@yandex.ru**

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT:


1. Rüstəmxanlı, Sabir. Qarabağa dönüş poeması. Bakı: Qanun, 2021, 128 s.
2. Şərəfxanlı, Nəsimi. Sabir Rüstəmxanlı poetikası. Bakı: Adiloğlu nəşriyyatı, 2003, 204 s.
3. İmdat, Avşar. Sabir Rüstəmxanlının "Qarabağa dönüş" poeması haqqında. Ədəbiyyat qəzeti. 2022, 10 sentyabr, s.14-15
4. Amaşov, Əflatun. Ruhun zəfər təntənəsi – "Qarabağa dönüş". 525-ci qəzet. 2021, 23 oktyabr, s.14
5. Həbibbəyli, İsa. Bütövlüyün təntənəsi, Zəfərin isti izlərinin poeması: Sabir Rüstəmxanlının "Qarabağa dönüş" poeması haqqında. Ədəbiyyat qəzeti. 2021, 9 yanvar, s.8-9
6. Ulusel, Rahid. Vətən müharibəsi və ədəbiyyatımız. Ədəbiyyat qəzeti. 2021, 25 sentyabr, s.4-7
7. Vəliyeva, Sona. Zəfərin poetik tarixi. Sabir Rüstəmxanlının "Qarabağa dönüş" poeması haqqında düşüncələr. Ədəbiyyat qəzeti, 2021, 22 may, s.14
8. Sabir Rüstəmxanlı Meydan hərəkatından danışdı. "Bizim yol" qəzeti, 2018, 17 noyabr, s.7
9. Adışirinov, Tural. Ədəbyyatda Qarabağ mövzusu. Respublika Elmi konfransının materialları. Bakı, Azərbaycan. 2021, 24 aprel, s.15-18


**Məqaləyə istinad:** Güllü Xəlilova. Sabir Rüstəmxanlının 44 günlük Vətən müharibəsinə həsr etdiyi "Qarabağa dönüş" poeması. Risalə. Elmi araşdırmalar jurnalı. Nömrə 2 (25), 2023. səh.71-83.
DOİ: 10.30546/2702-0034.2023.2.25.71

*Gullu KHALILOVA*

## THE POEM OF SABIR RUSTAMKHANLY’S "RETURN TO KARABAKH" DEDICATED TO 44 DAYS OF KARABAKH WAR II

***Summary***

The Azerbaijani Government implemented the counterattack on September 27, 2020, almost 30 years after the Armenian occupation and thus declared the Second Karabakh War. The first Karabakh War was started in the late 1980s and early 1990s, which resulted in the occupation of more than 20 per cent of Azerbaijan territories by Armenia and became a major topic of discussion in both social and literary environments for decades.

As in the First Karabakh War, literary works began to emerge during Karabakh War II.

Among the works devoted to the Karabakh War, Sabir Rustamkhanly's "Return to Karabakh" became the first poem to be written during the war. At the same time, this poem is a special work in terms of historical truths. Therefore, the poet divided the poem into sections and tried to reconcile it with the truths of today by touching on key historical points. Thus, he emphasized the desire for historical justice for the entire Azerbaijan.

In the poem, we feel the Turkish and nationalistic spirit specific to Sabir Rustamxanly’s creativity style. The artist reminded us of the importance of friendship with Turkey and Pakistan, noting in particular that we will never forget the selflessness shown by the two countries during the war.

One of the most important parts of the poem is the conquest of Shusha. The liberation of Shusha city in hand-to-hand combat according to the military characteristics of modern times also required great determination, heroism, and a high level of preparation. The great victory of our mighty soldiers in face-to-face combat with the enemy revealed to the world the spirit of the Azerbaijani sons.

The poem "Return to Karabakh" is not only a brief chronicle of the 44-day Civil War but also a masterpiece of the main stages of Azerbaijan's history. The poem "Return to the Karabakh" is an important illustration of our victory, the appreciation of the glorious historical events we live in, and its transmission to future generations.

*Гюллу ХАЛИЛОВА*

**ПОЭМА «ВОЗВРАЩЕНИЕ В КАРАБАХ» САБИРА РУСТАМХАНЛЫ, ПОСВЯЩЕННАЯ 44-ДНЕВНОЙ ВТОРОЙ КАРАБАХСКОЙ ВОЙНЕ**

***Р е з ю м е***

Почти 30 лет после оккупации, 27 сентября 2020 года, правительство Азербайджана решило провести операцию по контрнаступлению и тем самым объявило Вторую Карабахскую войну. Таким образом, 44-дневная война за освобождение территорий, оккупированных Арменией в конце 80-х – начале 90-х годов XX века, стала главной темой обсуждения как в социальной, так и в литературной среде.

Как и во время Первой Карабахской войны, начали появляться литературные произведения и во время Второй Карабахской войны.

Среди произведений, посвященных Карабахской войне, поэма «Возвращение в Карабах» Сабира Рустамханлы стало первым стихотворением, написанным во время войны. В то же время это произведение является особым с точки зрения раскрытия исторической правды и проявления любви к Отечеству. Поэтому поэт поделил ее на разделы и попытался сопоставить с реалиями сегодняшнего дня, затронув ключевые исторические моменты. Таким образом, он особо подчеркнул стремление к исторической справедливости для всего Азербайджана.

В стихотворении отчетливо ощущается тюркский и националистический дух, характерный для творчества Сабира Рустамханлы.

Поэт напомнил нам о важности дружбы с Турцией и Пакистаном, отметив, в частности, что мы никогда не забудем самоотверженность, проявленную двумя странами во время войны.

Одной из важнейших частей поэмы является покорение Шуши. Освобождение города Шуша в рукопашном бою в соответствии с военными особенностями современности также требовало большой решимости, героизма и высокого уровня подготовки. Великая победа наших отважных военнослужащих в рукопашной схватке с врагом раскрыла миру истинный дух азербайджанских сынов.

Наряду с краткой хроникой 44-дневной гражданской войны, поэма «Возвращение в Карабах» также является и шедевральным произведением повествующем об основных этапах истории Азербайджана. Поэма «Возвращение в Карабах» является важным литературным образцом нашей победы с точки зрения дачи оценки историческим событиям, а также передачи ее будущим поколениям.